# Rayon təhsil işçilərinin sentyabr konfransı

## Çıxışlar

### Səbuhi Abdullayev, Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı.



**Hörmətli qonaqlar!**
**Əziz konfrans iştirakçıları, xanımlar və cənablar!**

Sizin hər birinizi bu mötəbər tədbirdə ürəkdən salamlayır, rayonun bütün təhsil işçilərini müəllimlərin ənənəvi sentyabr konfransı münasibəti ilə səmimi-qəlbdən təbrik edir, hamınıza qarşıdan gələn yeni dərs ilində müvəffəqiyyətlər arzulayıram.

Müstəqil Azərbaycanın ictimai, iqtisadi, mədəni həyatı sürətlə dəyişir, bütün sahələrdə başlanılmış islahatlar uğurla davam etdirilir. Bu islahatlar cəsarətli olduğu kimi, həm də möhtəşəm və əzəmətlidir. Çünki onun özülü, bünövrəsi çox uzaqgörənliklə qoyulmuşdur.

Bu gün dövlət qayğısı ilə əhatə olunmuş Azərbaycan təhsilinin uğurlarının günü-gündən artmasının, inkişaf etməsinin və dünya təhsilinə inteqrasiyasının təməlində ümummilli liderimiz Heydər Əliyev tərəfindən müəyyən edilmiş siyasi kurs və bu kursun möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi durur. Ölkə başçısının dəfələrlə səsləndirdiyi "Təhsil Azərbaycanın davamlı inkişaf strategiyasının ən öncül istiqamətlərindən biridir" - fikri təhsilin dövlət siyasətinin mərkəzi subyekti olduğunu bir daha təsdiq edir.

Təhsil sahəsində başlanılmış islahatlar möhtərəm Prezidentimiz tərəfindən böyük uğurla davam etdirilir, müasir təhsil sahəsi texnologiyalarının öyrənilməsi, ümumiləşdirilərək milli zəmində inkişaf etdirilməsi və qiymətləndirilməsi sahələrində böyük uğurlar qazanılır, təhsilin hümanistləşdirilməsi və demokratikləşdirilməsi sahəsində yüksək nailiyyətlər əldə olunur.

Ölkəmizin hər yerində olduğu kimi, Qəbələ rayonunda da təhsil sistemi inkişaf yolundadır. Artıq neçə illərdir ki, təhsilin hüquqi bazası yaradılmış, məzmununda və strukturunda müasir tələblərə uyğun dəyişikliklərin aparılması istiqamətində səmərəli işlər həyata keçirilmişdir.

Bu gün keyfiyyətli və davamlı təhsil ictimaiyyəti və cəmiyyəti düşündürən ən aktual məsələlərdəndir. Bunu öz fəaliyyətində rəhbər tutan rayonun təhsil işçiləri 2014-2015-ci dərs ilini uğurla başa vurmuşlar.

Gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması, onların cəmiyyətin aparıcı qüvvəsi kimi yetişdirilməsi, təhsilin ali məqsədini təşkil edir. Bu istiqamətdə rayonumuzun təhsil ocaqlarında görülmüş işlər sistemli olaraq ardıcıl davam etdirilməlidir.

Bu baxımdan ötən dərs ilində Heydər Əliyev Mərkəzində təşkil olunmuş tədris kursları ümummilli liderin siyasi irsinin, həmçinin ölkəmizin tarixinin dərindən öyrənilməsinə stimul vermişdir. Qazanılmış müsbət ənənələr inkişaf etdirilməli, davamlı olaraq məktəblərdə ulu öndərin azərbaycançılıq məfkurəsinin geniş təbliğ edilməsinə və öyrənilməsinə diqqət daha da artırılmalı, gənc nəsil, uşaqlar və yeniyetmələr milli, mənəvi, əxlaqi dəyərlərimizə sevgi ruhunda tərbiyə olunmalıdır.

Rayon təhsil şöbəsində müəllimlərin pedoqoji hazırlığının yüksəldilməsi, onların müasir təlim texnologiyalarına yiyələnməsi, İKT-dan istifadəsinin təkmilləşdirilməsi istiqamətində də məqsədyönlü işlər görülür, müəllimlərimiz respublika və beynəlxalq səviyyəli tədbirlərdə, layihələrdə uğurla iştirak edirlər. Azərbaycan Respublikası Prezidentinin 17 aprel 2006-cı il tarixli 1414 saylı Sərəncamına uyğun olaraq görülən işlərin nəticəsində məktəblərimizdə istedadlı şagirdlərin üzə çıxarılması, onların bilik və bacarıqlarının inkişaf etdirilməsi sahəsində böyük uğurlar qazanılmış, məktəblilərimiz müsabiqələrdə, bilik yarışlarında və fənn olimpiadalarında yüksək nailiyyətlər əldə etmişlər.

**Hörmətli konfrans iştirakçıları!**

Tədqiqatçılıq bu gün müasir təhsil sistemində işləyən müəllimlərimizin aparıcı xüsusiyyəti hesab olunmalıdır. İnformasiyaların sürətlə artdığı bir zamanda onu ardıcıl olaraq izləmək, ümumiləşdirərək öz işinə tətbiq etmək müəllimlər üçün əsas keyfiyyət kimi dəyərləndirilir. Fəaliyyətini belə yaradıcı xarakterdə qura bilməyən müəllimlər zamanın informasiya axınından geri qalmaqla fəaliyyətinin maraq amili ilə bağlı üstünlüklərini itirir. Nəticədə onların işinin keyfiyyəti aşağı düşür. Bu kimi vacib məsələləri rayon təhsil şöbəsi diqqət mərkəzində saxlamalıdır.

Yadda saxlamalıyıq ki, bu gün təhsildə əsas hədəflərdən biri də gənclər arasında idmanın inkişaf etdirilməsi və onlarda sağlam həyat tərzinin formalaşdırılmasıdır.

**Hörmətli konfrans iştirakçıları!**

Azərbaycan xalqı gələcəyimiz olan gənc nəslin vətənə məhəbbət, xalqa hörmət, soykökünə, ənənələrə sədaqət ruhunda tərbiyə olunmasına həmişə böyük məsuliyyətlə yanaşmış və ona həyati əhəmiyyətli məsələ kimi baxmışdır. Biz şanlı tariximizlə, qəhrəmanlarımızla həmişə fəxr etmişik. Qarabağ savaşında həlak olmuş qəhrəmanlarımızın ibrətamiz həyatı, şəxsi nümunəsi buna canlı misaldır. Artıq bu gün müstəqil dövlətimizin inkişafı, ilk növbədə böyüyən nəslin təlim-tərbiyə işinin düzgün təşkilindən, vətəndaşlıq hazırlığından asılıdır. Müasir dövrdə təhsilin qarşısında qoyulmuş fəal vətəndaşlar yetişdirmək vəzifəsi də məhz sistemli, ardıcıl aparılan vətənpərvərlik tərbiyəsinin nəticəsində reallaşır.

Bu istiqamətdə daha böyük nailiyyətlərin əldə edilməsi üçün təhsil ocaqlarının maddi-texniki bazasının möhkəmləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Son illərdə bununla əlaqədar rayonumuzda çox böyük işlər görülmüşdür. Eyni zamanda bu istiqamətdə tədbirlər sistemli və ardıcıl olaraq davam etdirilməlidir. Yeni dərs ilində daha bir təhsil ocağının-360 şagirdyerlik şəhər 5 saylı tam orta məktəbin yeni binasının açılışı olacaqdır. Bu gün qarşımızda duran əsas vəzifə yeni məktəblərimizin, oradakı avadanlıqların qorunub saxlanılması, əvvəlki məktəb binalarından maksimum istifadə olunmasıdır.

**Hörmətli konfrans iştirakçıları, əziz müəllimlər!**

Mən qarşıdan gələn yeni dərs ili və "Bilik Günü" münasibəti ilə Sizi bir daha təbrik edir, konfransın işinə uğurlar arzulayıram.

Təhsilin inkişafına göstərdiyi hədsiz qayğı və diqqətə görə Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevə, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya bütün qəbələlilər adından dərin minnətdarlığımı bildirirəm.

### Fərzəli Qədirov, Azərbaycan Təhsil Nazirliyinin nümayəndəsi

**Hörmətli ağsaqqal, millət vəkili Fəttah Heydərov, Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev və konfrans iştirakçıları!**

Yeni dərs ili münasibətilə sizin hamınızı təhsil nazirliyinin rəhbərliyi adından təbrik edirəm. Bu gün Qəbələ müəllimlərinin sentyabr konfransının belə gözəl və ulu öndər Heydər Əliyevin adını daşıyan bir mərkəzdə keçirilməsi bütövlükdə Azərbaycanın, o cümlədən Qəbələnin sosial-iqtisadi inkişafının bariz nümunəsidir. Dünən cənab Prezidentin yanındakı müşavirədə ölkə başçısının qeyd etdiyi kimi dünyanı qlobal böhranın bürüdüyü bir şəraitdə Azərbaycanın iqtisadi, siyasi inkişafı davam edir. Bugünki məruzə və çıxışlarda da bu faktlara toxunuldu. Müstəqil Azərbaycanın dünya ölkələri arasında bir ada kimi inkişafı, əməli işi, sözü ilə fərqlənməsi bizim hamımızda qürur hissi doğurur. Son illərdə Qəbələnin özündə davam edən quruculuq inkişaf tendensiyaları da buna misaldır.



Mən bu gün burada eşitdim ki, yeni dərs ilində Qəbələdə böyük bir tam orta məktəb-Şəhər 5 saylı tam orta məktəb istifadəyə veriləcəkdir. Prezident yanında dünənki iqtisadi məsələlərə həsr olunmuş müşavirədə də qeyd olundu ki, bütün sosial layihələr məktəblərin, uşaq bağçalarının, xəstəxanaların və digər sosial sahələrin inkişafı gələn illər də davam etdiriləcək. Əlbəttə, Heydər Əliyev siyasəti əsasında təhsilin inkişaf strategiyası müəyyən olunub. Bu istiqamətdə bütün tendensiyalar üzrə inkişafa cənab Prezident tərəfindən xüsusi diqqət yetirilir.

Təhsil şöbəsi müdirinin məruzəsində məlumat verildi ki, Qəbələ rayonu üzrə təlimin keyfiyyətində yüksəliş olmuşdur. Məsələn, IX siniflərdə 5 faiz artım var. Lakin Qəbələdə sosial-iqtisadi inkişaf sahəsində əldə edilən uğurlara görə bu tempi aşağı hesab edərdim. Qəbələdə təhsil üçün yaradılan şərait bu sahədə daha yüksək uğur qazanmağa ümid verməlidir. XI siniflərdə isə təlimin keyfiyyəti əvvəlki dərs ilinə nisbətən aşağı düşüb. Bu faktın özü də müsbət sayıla bilməz.

Məktəb rəhbərləri vaxtında və lazımi təhlillər aparmalı, problemlərin harada baş verdiyini müəyyən etməli və təlimin keyfiyyətini yüksəltmək üçün tədbirlər görməlidirlər.

Rayon üzrə 600-dən yuxarı bal toplayan məzunların sayı ötən il 50 faiz olmuşdursa, bu il 57 faizə çatmışdır. Bu göstəriciyə görə məktəb rəhbərlərini, müəllimləri, valideynləri təbrik edirik.

Şagirdlərin fənn olimpiadalarında iştirakında, həmçinin istedadlı şagirdlərin üzə çıxarılmasında da göstəricilər pis deyildir. Lakin bu gün müəllimə, məktəblərdə təlim-tərbiyənin yüksəldilməsinə göstərilən dövlət qayğısı müntəzəm olaraq artır. Hazırda gənc müəllimlərə göstəriləcək diqqət və qayğı üzərində nazirlik səviyyəsində də iş aparılır. Məktəb rəhbərliyi də gənc müəllimlərə diqqəti artırmalı, elə etməlidirlər ki, onlar göndərilən məktəblərdə qalıb işləsinlər. Məhz müəllim dövlətin ona göstərdiyi qayğıya görə öz işini qurmalıdır.

Mən əminəm ki, növbəti dərs ilində Qəbələ məktəblərində dövlət qayğısına cavab olaraq təlim-tərbiyənin keyfiyyəti daha da yüksələcək, müəllimlərimiz gələcəyin qurucuları olan şagirdlərimizə yüksək bilik verilməsində əllərindən gələni əsirgəməyəcəklər.